

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 55 (21.716)

*18 mart 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi Novruz bayramı münasibətilə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təbriklərini çatdırdı.

Dövlətimizin başçısı öz növbəsində bayram münasibətilə rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezini və İran xalqını təbrik etdi.

Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu məmnunluqla qeyd edildi, Azərbaycan Prezidenti İlham Əliyevin İrana uğurlu rəsmi səfərinin önəmi vurğulandı.

Söhbət zamanı Şimal-Cənub nəqliyyat dəhlizinin icra vəziyyəti, bank sektorunda əməkdaşlığın perspektivləri və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Huawei şirkətinin baş vitse-prezidenti ilə görüşmüşdür

Martın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Huawei şirkətinin baş vitse-prezidenti xanım Ami Lin ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı ümummilli lider Heydər Əliyevin vətəni Naxçıvanda görməkdən məmnunluğunu bildirmiş, Huawei şirkətinin Azərbaycandakı fəaliyyətinə 2002-ci ildə Naxçıvandan başladığını və ötən dövrdə yaxşı əlaqələrin qurulduğunu diqqətə çatdırmışdır. Həyata keçirilən qarşılıqlı layihələrdən razılığını bildirən Ali Məclisin Sədri imzalanacaq yeni müqavilənin də bu baxımdan əhəmiyyətini vurğulamışdır. Naxçıvan Muxtar Respublikasında yeni innovasiyaların tətbiqindən danışan Ali Məclisin Sədri muxtar respublikanın bütün ərazisinin sürətli internetlə təmin olunduğunu, dördüncü nəsil mobil rabitə şəbəkəsinin fəaliyyət göstərdiyini, Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində rabitə və yeni texnologiyalar üzrə mütəxəssislərin hazırlandığını qeyd etmişdir.



Ali Məclisin Sədri naxçıvanlı tələbələrin Çində Huawei şirkətinin yay təlim məşğələlərində iştirakından məmnunluğunu ifadə etmiş, Naxçıvan Muxtar Respublikası ilə Huawei şirkəti arasında əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirmişdir.

Huawei şirkətinin baş vitse-prezidenti Ami Lin Naxçıvana səfərindən və keçirilən görüşdən böyük məmnunluq duyduğunu bildirmişdir. Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafının onda böyük təəssürat yaratdığını diqqətə çatdıran Ami Lin xüsusilə yeni texnologiyaların tətbiqi sahəsində görülən işləri yüksək qiymətləndirmişdir. Dünyanın ən böyük telekommunikasiya şirkətlərindən olan Huawei ilə Naxçıvan Muxtar Respublikası arasında ötən 15 ildə səmərəli əməkdaşlığın qurulduğunu qeyd edən qonaq yeni texnologiyaların iqtisadi inkişafdakı əhəmiyyətinə toxunmuş, Huawei şirkətinin muxtar respublika ilə əməkdaşlığa bundan sonra da mühüm əhəmiyyət verəcəyini bildirmişdir.

Görüşdən sonra Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə Huawei şirkəti arasında "Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində telekommunikasiya şəbəkəsinin yeni nəsil telefon stansiyaları ilə əvəz edilməsi" haqqında müqavilə imzalanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Çin Xalq Respublikasının Huawei şirkətinin nümayəndə heyəti muxtar respublikanın mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub

*Huawei şirkətinin baş vitse-prezidenti xanım Ami Lin: "Naxçıvanda görülən işlər, tarixlə müasirliyin nizamlı vəhdəti məndə xoş təəssüratlar yaratdı"*





***Martın 17-də Çin Xalq Respublikasının Huawei şirkətinin baş vitse-prezidenti xanım Ami Linin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan şəhərinin baş meydanında ulu öndər Heydər Əliyevin əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.***

Naxçıvan Dövlət Xalça Muzeyində qonaqlara məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin olunub. 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3200-dən çox eksponat var. Burada Naxçıvan xalçaçılıq sənətinin öyrənilməsi və təbliği istiqamətində müəyyən tədbirlər görülür.

Buradan Duzdağ Fizioterapiya Mərkəzinə gələn nümayəndə heyətinə məlumat verilib ki, mərkəz 1979-cu ildən 50 çarpayılıq xəstəxana kimi fəaliyyətə başlayıb. 1980-ci ildə çarpayıların sayı 100-ə çatdırılıb. Yer altındakı müalicə mərkəzi girişdən 300 metr məsafədə, 110 metr dərinlikdə yerləşir. 2006-cı ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb. Şöbənin 300 metr giriş yolu genişləndirilib, yolboyu işıqlandırma sistemi quraşdırılıb.

Qeyd olunub ki, burada uşaqlar 12-15, böyüklər isə 14-18 gün hər cür şəraiti olan yeraltı tuneldə müəyyən saatlarda qalmaqla müalicə alırlar. Xəstəxana horizontal şəkildə olduğundan buraya gələn xəstələr tuneldə, təxminən, 300 metr məsafəlik yolu özləri qət edirlər. Bu isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Belə olan halda burada müalicə alan xəstələr qısa müddətdə sağala bilirlər. Xəstələr əvvəlcə 2-3 gün müddətində xəstəxana ərazisinə adaptasiya olunurlar. Bundan sonra saat $18^{00}$-dan səhər saat $8^{00}$-dək böyüklər 20-24 seans, uşaqlar isə 14-18 seans yeraltı şöbədə müalicə alırlar. Müalicə başa çatdıqdan sonra böyüklərdə 65-70 faiz, uşaqlarda isə 80-85 faiz yaxşılaşma müşahidə edilir.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində saxlanılan, muxtar respublikanın ərazisində aşkarlanan tarixi əşyalar və kompleksdəki Nuh Peyğəmbərin məzarüstü türbəsi də çinli qonaqların marağına səbəb olub. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Buna görə də ərazidə tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri mövcuddur. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb. Hazırda kompleks muxtar respublikada müxtəlif festivalların, mədəni-kütləvi tədbirlərin həyata keçirildiyi məkana çevrilib.

Naxçıvan Muxtar Respublikasına səfərindən razı qalan Çin Xalq Respublikasının Huawei şirkətinin baş vitse-prezidenti xanım Ami Lin "Şərq qapısı" qəzetinə müsahibəsində deyib: "Bildiyiniz kimi, bizim şirkət artıq 15 ilə yaxındır ki, Azərbaycanda işləyir və bizim ilk partnyor əməkdaşlığımız məhz Naxçıvanla qurulub. Naxçıvana səfər etməyimiz bizim üçün sevindirici oldu. Burada maraqlı görüşlər keçirdik. Ali Məclis Sədrinin rəhbərliyi ilə Naxçıvanda görülən işlər, tarixlə müasirliyin nizamlı vəhdəti, buradakı insanların gələcəyə olan nikbin baxışları məndə xoş təəssüratlar yaratdı. Bütün bunlar isə bizi əməkdaşlığa daha da ruhlandırır. İstəyirik ki, informasiya-kommunikasiya texnologiyaları sahəsində qazanılan yenilikləri, xüsusilə təhsildə qabaqcıl texnologiyaların tətbiqi ilə bağlı layihələrimizi bundan sonra da davam etdirək".

Çin Xalq Respublikasının Huawei şirkətinin nümayəndə heyətinin muxtar respublikaya səfəri dünən başa çatıb.

**Səbuhi HƏSƏNOV**

# Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovanın 90 illik yubileyi qeyd olunmuşdur

*Martın 17-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin akt zalında Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovanın 90 illiyi münasibətilə yubiley tədbiri keçirilmişdir.*





Görkəmli əmək qəhrəmanının ailə üzvlərinin də iştirak etdiyi yubiley tədbirində çıxış edən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova Bahar Talıbovanın həyat və fəaliyyəti haqqında ətraflı məlumat verərək bildirmişdir ki, Bahar Talıbova xalqına, millətinə xidməti həyat amalı seçən əmək qəhrəmanı kimi bu gün hər birimizin qəlbində yaşayır. Fədakar əməyi ilə ad-san qazanan, ləyaqətli ömür yaşayan Bahar xanımın keçdiyi həyat yolu sıravi əməkçidən Əmək Qəhrəmanına, adi zəhmət adamından o dövrün yüksək mükafatına layiq görülmüş Vətəndaşına çevrilməyin, ən başlıcası isə el-obanın sevimlisi olmağın bariz nümunəsidir. Bahar xanımın sağlam vətəndaş mövqeyi və şərəfli həyat yolu gənc nəslə örnəkdir.

Qeyd olunmuşdur ki, Bahar xanım Talıbova 1927-ci il mart ayının 17-də Şərur rayonunun Aşağı Aralıq kəndində dünyaya göz açmışdır. Böyük Vətən Müharibəsi başlananda Bahar Talıbova Şərur rayonundakı Qarxun kənd yeddiillik məktəbinin beşinci sinfində oxuyurdu. Atası müharibədə həlak olandan sonra ailəni dolandırmaq üçün məktəbdən ayrılmadan əmək fəaliyyətinə başlamışdır. 1943-cü ildə Şərur rayonunun Qarxun kənd məktəbini bitirdikdən sonra "Zəhmət" kolxozunda çalışan Bahar xanım Talıbovanın adına 16 yaşında ilk əmək kitabçası yazılmış, 1951-ci ildən Qarxun kəndindəki Mehdi Hüseynzadə adına kolxozda manqa başçısı işləmişdir. "Məni torpaq böyütdü, torpaq şöhrətləndirdi. Mən torpağa əyildim, torpaq da mənə güc-qüvvət verdi", – deyən Bahar xanım Talıbova öz zəhməti ilə zirvələrə ucalmış, adlı-sanlı əmək qəhrəmanı, el ağbirçəyi adını qazanmışdır. Böyük Vətən Müharibəsi dövründə və müharibədən sonrakı illərdə əməyi qiymətləndirilən Bahar Talıbova ilk dəfə 1941-1945-ci illərdə "Rəşadətli əməyə görə" medalı ilə təltif olunmuşdur.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti Rəyasət Heyətinin 1959-cu il 27 oktyabr tarixli Fərmanı ilə Bahar Talıbovaya Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının "Pambıq ustası" fəxri adı verilmişdir.1959-cu ildə manqa başçısı işləyərkən 12 hektar sahənin hər hektarından 60 sentner pambıq götürdüyündən Bahar Talıbovaya SSRİ Ali Soveti Rəyasət Heyətinin 1960-cı il 7 mart tarixli Fərmanı ilə SSRİ-də ən yüksək fəxri ad olan "Sosialist Əməyi Qəhrəmanı" adı verilmiş, o, "Azərbaycan SSR-in qırx illiyi şərəfinə" yubiley medalı, "Lenin" ordeni və "Oraq və çəkic" qızıl medalı ilə təltif olunmuşdur. Bahar xanım bu yüksək ada Naxçıvan Muxtar Respublikasında 33 yaşında layiq görülən birinci qadın idi. Sonrakı dövrlərdə də onun əmək uğurları yeni təltiflərdə öz əksini tapmış, o, 1964-cü ildə Azərbaycan SSR-in "Əməkdar pambıqçısı" fəxri adı, 1966-cı ildə "Qırmızı əmək bayrağı" ordeni, 1971-ci ildə isə "Oktyabr inqilabı" ordeni ilə təltif edilmişdir. Mənalı bir ömür yaşayan Bahar Talıbova yüksək ictimai fəaliyyət göstərmiş, dörd çağırış – 16 il SSRİ Ali Sovetinin, 3 çağırış – 12 il Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin deputatı seçilmişdir. Bahar Talıbova 28 il fasiləsiz olaraq ali hakimiyyət orqanlarında deputat mandatı daşımış, çalışdığı dövrdə yüksək təşkilatçılıq nümayiş etdirmişdir. Bahar xanımın təşəbbüsü ilə Şərur rayonunda neçə-neçə məişət xidməti obyektləri, xəstəxana və feldşer-mama məntəqələri, təhsil ocaqları tikilib istifadəyə verilmişdir.

Vurğulanmışdır ki, Bahar xanım Talıbova uzun illər Şərur Rayon Qadınlar Şurasının sədri olmuş, eyni zamanda yerli sovetlərdə də xalqın layiqli elçisi funksiyasını yerinə yetirmiş, dəfələrlə kolxozçuların ümumittifaq qurultaylarının nümayəndəsi seçilmişdir. Bahar xanım əldə etdiyi yüksək göstəricilərə görə dəfələrlə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin və Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanlarına layiq görülmüşdür. Bahar xanımı başqalarından fərqləndirən ən böyük xüsusiyyət özünəməxsus təşkilatçılıq qabiliyyəti və bacarığının olması idi. İşlədiyi dövrdə ona verilən tapşırıqları ikiqat artıqlaması ilə yerinə yetirdiyindən dəfələrlə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində iştirak etmiş, sərginin gümüş medalına layiq görülmüşdür.

Bildirilmişdir ki, 40 ildən çox əmək cəbhəsində çalışan, öz alnının zəhməti ilə şöhrət qazanan, hünər və zəfəri dillər əzbəri olan zəhmətsevər Azərbaycan qadınına Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsinin 1982-ci il 19 avqust tarixli qərarı ilə İttifaq əhəmiyyətli fərdi təqaüd verilmişdir. Əmək qəhrəmanı Bahar Talıbovanın fəaliyyəti Azərbaycanın müstəqillik illərində də yüksək qiymətləndirilmiş, o, ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il 2 oktyabr tarixli Sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşdür. Bahar xanım Talıbovanın qazandığı yüksək göstəricilər "Bizim qadınlar" və "Nəsillərə nümunə: qayğı dolu ömür yolu" sənədli filmlərində öz əksini tapmış, 2007-ci ildə görkəmli ictimai xadimin 80 illik yubileyi münasibətilə nəfis üslubda tərtib edilmiş "Qayğı dolu ömür yolu" kitabı nəşr olunmuşdur. Şair və yazıçılarımızdan Şıxəli Qurbanov, Hüseyn İbrahimov, Elman Həbib, Asim Yadigar, Əlləddin Eyvazov ona əsərlər həsr etmişlər. Bahar xanımın sağlam vətəndaş mövqeyi, keçdiyi həyat yolu və ictimai fəaliyyəti gənc nəslə örnəkdir. Buna görə də adlı-sanlı əmək qəhrəmanı, el ağbirçəyinin xatirəsi el-oba içərisində yaşayır və yaşayacaqdır. Azərbaycan qadınına xas olan bütün yüksək keyfiyyətləri özündə birləşdirən Bahar Talıbovanın həyat yolunu göz önünə gətirdikdə onun nəcib, xeyirxah insan olduğunu, xalqını, Vətənini dərin məhəbbətlə sevdiyini görürük. Bu gün xoş xatirə kimi yaddaşlarda yaşayan görkəmli əmək qəhrəmanı Bahar Talıbovanın adı keçmiş Sovetlər Birliyi məkanında daim uca tribunalardan çəkilmişdir. O, işi və əməli ilə nəinki respublikamızda, hətta respublikamızın hüdudlarından kənarda da xalqımızın adını yüksəltmişdir. Bahar Talıbova öz əzmkarlığı ilə daim seçilmiş, əmək cəbhəsində böyük nailiyyətlər qazanaraq Azərbaycan qadınının adını şərəflə daşımışdır.

Ramilə Seyidova demişdir ki, Bahar xanım eyni zamanda gənc nəslin tərbiyəsində, milli və ailə dəyərlərinin qorunmasında, qadınlara nümunəvi iş şəraitinin yaradılmasında müstəsna xidmətlər göstərmişdir. Onun zəfərlərlə dolu əmək fəaliyyəti, ləyaqətli ömür yolu hər zaman Azərbaycan qadını üçün böyük tərbiyəvi gücə malikdir.

Yubiley tədbirində Bahar Talıbova haqqında xatirələrini danışan Sosialist Əməyi Qəhrəmanı Həvayət Qurbanova bildirmişdir ki, Bahar xanımın adı bu gün də şərəflə anılır. O, təbiətən sadə, qayğıkeş və ləyaqətli bir insan idi. Bahar xanımı xatırlayarkən insanın gözləri önündə özünəməxsus həyat tərzi, dünyagörüşü, iş üsulu ilə seçilən əqidəli bir insan obrazı canlanır. Onda Azərbaycan qadınlarına xas olan yüksək insani keyfiyyətlər vardı. Həyat və fəaliyyəti xalqına, doğma torpağına məhəbbət və sədaqət meyarı olan Bahar Talıbovanın adı Azərbaycan xalqının qəhrəmanlıq simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilmişdir.

Tədbirdə çıxış edən Şərur Rayon Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin sədri, Əməkdar mədəniyyət işçisi Ümbülbəni Musayeva demişdir ki, qədim Şərur torpağının yetirməsi, fədakar əməyi ilə şərəfli bir ömür yolu keçmiş, 4 dəfə SSRİ Ali Sovetinin deputatı olmuş, "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüş Bahar xanım Talıbova əməksevərliyi, torpağa bağlılığı ilə elinə-obasına şan-şöhrət gətirmiş, fədakar əməyi ilə ad-san qazanmış və şərəfli bir ömür yaşamışdır. Onun keçdiyi mənalı həyat yolu bugünkü və gələcək nəsillər üçün bir həyat məktəbidir. Bahar xanımın xatirələri, həyat örnəkləri, təcrübələri həmişə bizimlədir. Çünki əməyi ilə yüksələnlər, el hörməti qazananlar heç vaxt unudulmur, heç vaxt yaddan çıxmırlar. Bugünkü gənclər əməyə, torpağa, yurda bağlılığı onlardan öyrənməlidirlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar Bahar Talıbovaya həsr etdiyi "Bahar" poemasından parçalar oxumuş, Naxçıvan Dövlət Universitetinin tələbəsi Röya İsmayılova Əlləddin Eyvazovun "Bahar" poemasından bir hissəni bədii qiraət etmişdir.

Sonda tədbir iştirakçıları Naxçıvan Dövlət Televiziyasının hazırladığı, Bahar Talıbovanın həyat və fəaliyyətindən ətraflı bəhs edən "Nəsillərə nümunə: qayğı dolu ömür yolu" sənədli filminə baxmışlar.

**"Şərq qapısı"**

# Novruz bayramı xalqımızın milli birlik rəmzidir

*Novruz xalqımızın milli birlik rəmzinə çevrilmiş və milli ideologiyamızın əsas sütunlarından biri kimi əbədiləşmiş milli bayramıdır.*

Sovet imperiyası dövründə Novruza "dini bayram" damğasının vurulmasını, bu bayramın keçirilməsinin yasaq edilməsini yaşlı və orta nəsil yaxşı xatırlayır. Bu qadağaya baxmayaraq, ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin nüfuzu sayəsində Novruz bayramı ölkəmizdə geniş qeyd olunurdu. Bu, ulu öndərin doğma Vətəninə, onun qədim, zəngin tarixinə, cahanşümul mədəniyyətinə, milli adət-ənənələrinə tükənməz məhəbbətinin əyani təzahürü idi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra Novruz bayramı milli dövlət bayramı səviyyəsinə yüksəldilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyev Novruzun milli taleyimizdəki yerini, müstəqillik əldə etmiş gənc Azərbaycan Respublikasının dövlət quruculuğundakı məqamını, bir xalq, millət və dövlət kimi milli dirçəlişimizdəki rolunu yüksək dəyərləndirir, bayramın ölkəmizdə yüksək əhval-ruhiyyədə qeyd olunması üçün lazımi tədbirlər həyata keçirirdi. Novruzun taleyini Vətənin taleyi ilə eyniləşdirən xalqımızın böyük oğlu bildirirdi ki, indi Novruz Azərbaycanın dövlət bayramıdır. Lakin bu, digər dövlət bayramlarından ona görə seçilir ki, Novruz təbiətdən gəlmiş bayramdır, eyni zamanda özünün maddi vəziyyətindən asılı olmayaraq, hər bir insan onu qeyd edir. ***"Ürəklərdə saf duyğuların oyanması, insanlar arasında səmimiyyət, mehribanlıq və qarşılıqlı tellərin möhkəmlənməsi, kin-küdurətin aradan qaldırılması, cəmiyyətdə qarşılıqlı xoş münasibətlərin bərqərar olması Novruzun əsrlərin süzgəcindən keçərək formalaşmış gözəl ənənələridir"***, – deyən ulu öndər Heydər Əliyevin insanlarda xoş duyğular yaradan, onların yaşamaq, yaratmaq həvəsini gücləndirən bu bayram münasibətilə Azərbaycan xalqına təbrikləri Novruzun ruhundan doğurdu. Ona görə də xalqın ürəyindən xəbər verirdi. Ölkədəki ictimai-siyasi durumu, adamların rifah halını, ümumiyyətlə, dövlət quruculuğu prosesini Novruz adətləri ilə bağlayan ümummilli liderimiz Novruz bayramının ümumxalq bayramına çevrilməsi, ölkənin hər bir guşəsində bu əziz günün əmin-amanlıq şəraitində, bol süfrə ilə qeyd olunması üçün ictimai-siyasi sabitliyi möhkəmləndirdi, ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etdi.

Haqlı olaraq bu gün qürur duyuruq ki, ümummilli liderimizin böyük səyləri ilə rəsmi dövlət bayramı olan – əbədi yaşamaq hüququ qazanan Novruz bayramı artıq dünyada tanınmaqdadır. 2009-cu ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin yekun qərarına əsasən, Novruz bayramının qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi Azərbaycan milli siyasətində Novruzun milli özünütəşkil və yaşatma mexanizmi kimi nə qədər böyük gücə malik olduğunun parlaq sübutudur.

Birləşmiş Millətlər Təşkilatı tərəfindən martın 21-i "Beynəlxalq Novruz Günü" elan edilib. Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Məclisində "Beynəlxalq Novruz Günü" adlı qətnamə layihəsi 2010-cu il fevralın 23-də qəbul olunub.

Ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı olan ölkə başçısı cənab İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin sürətli və davamlı inkişafı təmin olunub. İctimai-siyasi sabitlik yüksək dərəcədə möhkəmləndirilib. Bu da həyatımızın bütün sahələrində yeni uğurlar qazanılmasına stimul verib. Bütün bu uğurları hər bir Azərbaycan vətəndaşı öz gündəlik həyatında hiss edir, gələcəyə böyük ümid bəsləyir. Xalqımız builki Novruz bayramını da məhz belə bir yüksək ovqatla qarşılayır. Doğma Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan da Novruzu xüsusi şövqlə keçirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin milli dəyərlərə böyük sevgi və ehtiramı bu bayramın tarixi köklərə bağlı şəkildə keçirilməsini, onun ümumxalq şənliyinə çevrilməsini təmin edib. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar diyarımızda bayram şənliklərinin daha yüksək səviyyədə və milli zəmində təşkilinə stimul olub. Muxtar respublikanın ayrı-ayrı bölgələrində yüz illər boyu formalaşdırılmış adət-ənənələrin nümayiş etdirilməsi, folklor kollektivlərinin çıxışı Novruz şənliklərini daha rəngarəng edir.

Novruz bayramına dövlətin verdiyi dəyər və önəmi bu gün hər birimiz doğru-düzgün qiymətləndirməli, ona milli dövlət quruculuğumuzda hər bir vətəndaşın yaxından iştirakı üçün verilmiş milli quruculuq töhfəsi kimi yanaşmalıyıq. Çünki xalqımızın milli mədəniyyətinin öyrənilməsində, qədim mifik görüşlərindən tutmuş adət-ənənəsi, həyat tərzi haqqında aydın təsəvvürlər əldə edilməsində Novruz bayramının rolu çox böyükdür. Bunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yüksək dəyərləndirir. Ölkə rəhbəri bayramın layiq olduğu səviyyədə keçirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirir, hər il Novruz bayramı ərəfəsində Azərbaycan xalqını təbrik edir, Novruzun mahiyyətini ən kiçik detalları ilə ortaya qoyur. Dövlət başçısının bu il Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində dediyi kimi: ***"Bahar bayramı dövlət müstəqilliyimizin nailiyyəti olaraq rəsmi statuslu əsl ümumxalq bayramı səviyyəsində ölkəmizin bütün guşələrində qeyd edilir. Yaz bayramı yeniləşdirici ruhu və ılıq nəfəsiylə insanlar arasında səmimi münasibətlərə yol açır, dostluq, mərhəmət və bərabərlik duyğularını gücləndirir, cəmiyyətin inkişafının ahəngdarlığını təmin edir. Onda gələcəyə inam aşılamaq və könüllərdə ülvi duyğular oyandırıb xeyirxahlığa sövq etmək qüdrəti vardır. Ən yüksək dəyərləri özündə topladığı üçün də belə bir mənəviyyat xəzinəsi bəşəriyyətin mədəni irs nümunələri siyahısında yer almışdır".***

**Muxtar MƏMMƏDOV**

# Nur xonçası



*Bahar, istəklimsən başdan-*
*binadan,*
*Ən gözəl qızısan sən təbiətin...*

Mənə elə gəlir ki, bu, əlli il, yüz il əvvəlin şeiri deyil. Bu, nə vaxtsa – min il, iki min il, üç min il bundan öncə baharın qoynunda yaz işığına, yaz hərarətinə adaş doğulub.

İnsan təbiəti oyanışa səsləyən məqamda özü hələ mürgülü imiş. Ayırd eləmək çətindir: insan əvvəl oyanıb, yoxsa təbiət?! İnsan təbiətləşdikcə təbiət də insanlaşıb. Əks halda, heç biri ayrıca varlıq kimi özünü yaşada, özünü söykənəcəksiz qoya bilməzdi.

Yadımdadır, 20-22 yaşında bir dəfə uzunömürlü, yüz yaşdan çox yaşamış babamı sorğu-suala tutdum. Novruz bayramının yaşını müəyyən eləmək istədim. Babamın babası Şahsuvar kişinin, Şahsuvar kişiyə babası Nağdalının, ona da babasının... dediyi sözlərin ucundan tutub çözələməyə başladım. Təxminən, 7-8 yüz il vərəqlədim. Yenə də Novruz bayramının əzəlinə gedib çıxa bilmədim, dəhnədən su açıb-bağlaya bilmədim. Qədim tarixin qədim məlumatından yapışdım: əmək nəğmələri nə vaxt yaranıb, holavarlar nə vaxt meydana gəlib, əkinçi-səpinçi tarlaya nə vaxt çıxıb? Ümumiyyətlə, tarla necə yaranıb?

Ağlım kəsən gündən "Gəl-gəl, a yaz günləri"ni oxumuşam. Bəlkə, bu nəğmə onun müəllifinə yeddi arxa dönənindən – ulu babadan nəticəyə və ya kötücəyə bir pıçıltı idi, şair onu alıb yaşadıb. Bu, sadəcə, nəğmə deyil, nəsillərdən-nəsillərə ötürülən uşaq xorudur. İllər ötdükcə, yüz illər bir-birini əvəz etdikcə onun forması dəyişib, məzmunu isə necə varsa, eləcə də qalıb. Ona görə də heç bir fəlsəfi mənaya boy vermir, uşaq əqidəsi kimi təmiz, aydın, bulaq suyu kimi durudur. Uşaq heç bilmirdi ki, bu axşam kürsü üzərinə yeddilənin düzüləcək. Uşağın canında od qalamaq, "ağırlığım, uğurluğum..." sevincini odla bölüşmək həvəsi yaşayır. Burada hər şey təbiidir, heç bir qurama yoxdur.

Bəzən qış çox sərt gələrdi, mart ayında novruzgülünü gördüm deyən olmazdı. Belə məqamlarda qocalar güney yamacı qarlı görüb narahatlıqlarını bildirirdilər:

*Biri bizə yağıdır,*
*Biri cənnət bağıdır,*
*Biri yığıb gətirir,*
*Biri vurub dağıdır.*

"Biri bizə yağıdır" – ona görə ki, yaz əkini gecikir. Əkinçi gecikir, qoşqu heyvanlarını xamdan çıxarmalıyıq. Güneylərdə qar təzəcə tərləməyə başlayıb, quzeylərdə isə qış qarı hələ möhkəm dirənib yerə. Bəzən isə elə bil mart ayında hər yer qupquru olur, yollarda tozanaq qopurdu. Bu da əkinçinin ürəyincə deyildi: qışın qış yeri var, yazın yaz yeri. Hələ neçə əsr bundan əvvəl Xətai deyib:

*Qış getdi, yenə bahar gəldi,*
*Gül bitdi laləzar gəldi.*
*Quşlar qamusu fəğanə düşdü,*
*Eşq odu yenə bu canə düşdü.*

Aralarında zaman məsafəsi olsa da, şeir müəlliflərinin bahara münasibətləri çox yaxındır. Çünki aralarında dil körpüsü var, poetik ənənə körpüsü var. Quşlar yenə əvvəlki həvəslə oxuyur, sular eyni ahənglə ötür. Göy elə həmin göydür. Günəş elə həmin Günəşdir. İlk baxışda nəzərəçarpacaq dəyişiklik yoxdur. Amma diqqətlə baxsaq, buludların rəngini yerdən qalxan his-qurum xeyli dəyişdirib.

*"Ən gözəl qızısan sən təbiətin!"*

Necə təbii və səmimi deyilib: gözünün odusan!

Sənətdə öz aləmi, öz yeni səsi ilə yazın gözlərinə baxa-baxa nəğməsini oxuyub şair:

*Bahar gəlib yurdumuza,*
*Sular dilli,*
*Çöllər gülüş,*
*Göylər qızıl.*
*Təbiətin nur xonçası,*
*Gül xonçalı gəlin qızı –*
*Bahar gəlib.*
*Elə bil ki, böyüyərək,*
*Muğan olub Günəş boyda*
*Azərbaycan torpağı da*
*Cahan boyda...*

"Bahar, istəklimsən..." Amma baharla bağlı bəzi adları yaddan çıxarmışıq. Hanı Novruz adlı oğlan? Səməngül, Tərgül, Gülsənəm, Gülyaz, Gülçöhrə, Güllü və bu qəbildən olan digər qız adları? Bu adlar sanki yazın gəlişinə şahid idi.

Yaqin yaxın illərdə zaman yazla, gül-çiçəklə bağlı adlarımızı da qaytaracaq.

Yenə də qeyri-adi deyilişə qayıdıram, hara tələsirik?! Niyə tələsirik?!

*Aydı-ildi gəlib keçir ömürdən,*
*Tələsirik, görən yaza nə qaldı?*

**Məmməd Araz**
***"Azərbaycan təbiəti" jurnalı, 1989-cu il***

***<u>P.S.</u> İllər keçdi. Məmməd Araz 1989-cu ildə, hələ sovet əsarət zəncirini qırmadığımız bir dövrdə bir şairin misralarını təkrar xatırlatmaqla azadlıq arzularını ifadə etmişdi publisistik yazısında. Dövrün senzurasının gözündən yayınmaq üçün şeirdə "Elə bil ki, böyüyərək Azərbaycan torpağı cahan boyda olub." – yazdı Məmməd Araz. Oldumu? Oldu! Azərbaycan xalqı 70 il sonra azadlığını və müstəqilliyini əldə etdi. Azərbaycana bahar gəldi. Amma o bahar gələndə hələ güney yamaclarda qar qalmışdı. Bu qar Azərbaycan insanına ürəkdən sevinməyə imkan vermirdi. Və 1993-cü ilin iyununda Azərbaycan üzərində yenidən bir Günəş işıq saçmağa başladı – Heydər Əliyev Günəşi! Bəli, qışdan öncə gedən Günəş yenə parlaq nuru ilə qayıtdı yurdumuza! Azərbaycan kiçilməkdən qurtuldu. O Günəşin saçdığı parlaq nur Azərbaycanı böyütdü. Azərbaycan böyüdü, dünya boyda oldu. Dünyanın taleyini müəyyən edən BMT-də ən ali üzvlərdən birinə çevrildi.***

***Novruz, Səməngül, Tərgül, Gülsənəm, Gülyaz, Gülçöhrə, Güllü adları qayıtdı. İndi isə bəzən yenə də bu adların unudulmasını görürük. Amma düşünmək lazımdır. Azərbaycanı o insanlar böyütdü ki, onlar milli adları ilə, azərbaycanlı olmaqları ilə fəxr etmişdilər. Bu adları unutmayaq. Özümüzü öz dilimizdə adlandıraq. Çünki xalq olaraq, millət olaraq bizim bizdən daha dəyərli heç bir sərvətimiz yoxdur, Vətənimizdən dəyərli heç bir sərvətimiz yoxdur, milli kimliyimizdən dəyərli heç bir sərvətimiz yoxdur!***

## Novruz inancları

Bəzi yerlərdə martın 22-də Günəş üçün üç boğça yandırılır: birində xəstəliklər, ikincidə acılar, üçüncüdə dərdlər yandırılır.

* * *

Qışda hər şey yatıb donur. Yaz gəlib dörd dəfəyə bunları ayıldır. Bunların ayılması Novruz bayramında olur. Ona görə də Novruz oyanış bayramıdır.

* * *

Bayramın səhəri günü axar su üstünə gedər, sudan atlanar, su və yeddi çınqıl gətirib həyətə atarlar.

* * *

Novruzda süzülən plovun suyunu ağacların dibinə tökərlər, necə il bar verməyən ağac bar verər. Həmin sudan bir stəkan götürüb şər qarışan vaxtı həyət qapısından küçəyə atar, qapının dalında pusarlar. Əgər küçədən oğlan keçsə, niyyət qəbul olunar, qız keçsə isə yox.

## Bayram adətləri

Bizdə əvvəllər "alaqapı bəzəmə" deyilən bir adət olub. Bayramda kəndin ortasında yer ayrılar, hər kəs gücünə görə oraya bir şey qoyarmış və bu yığılan onam da kəndin kasıblarına paylanarmış.

* * *

Novruz bayramında kəndin başbilənləri teştə balıq ötürər, gözlərmişlər. İl təhvil olanda balıqlar arxası üstə dönərlər. Bununla da, yeni ilin gəlişi elan olunarmış. Həmin sudan uşağı olmayan gəlinlərə, evdə qalmış qızlara, xəstə insanlara verərmişlər. Buna "çiləsuyu" deyərdilər.

* * *

Novruz bayramında, çillədə insanlar niyyət edərkən ayağının altına açar, qıfıl qoyar (mən öz ağzımı bağladım, taleyimi səndən gözləyirəm), gözləyər, nəzərdə tutduqları adamın ilk sözünə uyğun öz niyyətlərini yozarlar.

***Novruz bayramında milli ruhumuzun, qədimliyimizin çaları bu gün də yaşayır. Əsrlər boyu xalqımız bu bayramla bağlı müxtəlif adətlər, mərasimlər yerinə yetirib, həmin adətlər folklorumuzda yaşadılaraq bu günə gəlib çatıb. Onlardan bəziləri isə müəyyən səbəblərdən unudulub, yaddan çıxıb. Bunlar arasında təkcə Naxçıvan diyarına xas olan mərasim də var. Bu, "Nuhtaban" və ya "Həzaranpir" adlanır. Həmin adətin yerinə yetirilməsi ilə bağlı rəvayət də vardır.***

# Novruz bayramının unudulmuş mərasimi: *"Nuhtaban"*

Belə ki, deyilənə görə, Nuhun ömrünün son zamanlarında oğlu Yafəs ona deyib: "Səndən sonra bu ölkəni qorumaq üçün mənə bir hikmət ver". Nuh Peyğəmbər düşüncələrə dalıb. Bir neçə gündən sonra o, yerdən bir daş lövhə götürüb, üstündə "Türk" sözünü yazaraq Yafəsə verib. Yafəs bu hikmətin sirrini soruşduqda atası deyib: "Bu adı Tanrı özü mənə təlqin etdi və dedi ki, mən Yafəsə bir oğul verəcəyəm, adını da mən qoyacağam. Onun adı Türk olacaq. Türk yalnız sənin ölkəni deyil, bütün dünyanı zülmdən, əsarətdən qurtaracaq, dünyanı cəhalət və nadanlıqdan xilas edəcək, insanlığa səadət yolunu göstərəcək və dünyanı işıqlandıracaq".

Zaman keçib, Yafəsin oğlu dünyaya gəlib. Ona gözəllik, igidlik mənalarını ifadə edən "Türk" adı qoyulub. Beləliklə, Türk millətinin ilk nümayəndəsi Azərbaycan torpağında – Naxçıvanda doğulub. Yafəsin həmişə fəxr etdiyi oğlu Türk ədəbiyyatımızda "Əbu-türk" kimi qalıb. Türkün də oğlu dünyaya gələrkən onu Əlincə adlandırıb. Həmin adla bağlı möhtəşəm qala – Əlincə qalası da məhz Naxçıvandadır. Deyilənlərə görə, Nuh Peyğəmbərin "Türk" adı yazdığı həmin müqəddəs daş lövhə vaxtilə Əlincə qalasında saxlanılırdı.

Mərhum tədqiqatçı Lətif Hüseynzadə Novruz ilə bağlı artıq unudulan bayram ənənəsi barədə deyirdi ki, hər il mart ayının əvvəllərində, bayram ərəfəsində üç gün davam edən mərasim keçirilmişdir. Belə ki, əvvəlcə Əlincə qalasında saxlanılan daş lövhə təntənəli şəkildə Nuhun Naxçıvan şəhərində yerləşən məzarına gətirilirmiş. Mərasim daş lövhənin Nuhun məzarı üzərinə qoyulması ilə başlayırmış. Məhz həmin mərasim "Nuhtaban" və ya "Həzaranpir" adlanırmış. "Nuhtaban" Nuhun məzarına işarə olaraq "İşıq saçan" deməkdir. Mərasimin "Həzaranpir" deyimi də mühüm bir semantik anlama malikdir. "Həzar" min rəqəmini ifadə edir. "Həzaran" minlər mənasında işlənir. "Həzaran" – yəni "min yaşlıların min yaşlısı" deməkdir. "Pir" isə "qoca", "mürşid", "rəhbər", "peyğəmbər" mənalarında işlədilir. Həzaranpir deyiləndə, yəni yaşlıların min yaşlısı, qoca Nuh Peyğəmbər nəzərdə tutulurmuş.

Mart ayının ilk günlərində Nuhtabanda "min yaşlıların min yaşlısı" mərasiminə başlanılırmış. O zamanlar Naxçıvan şəhər məscidinin baş ruhanisi, qazi Əbdül Kərim ağa Qazızadənin başçılığı ilə şəhərin mötəbər şəxslərindən, xan və bəylərdən, müəllim və ziyalılardan ibarət bir heyət Əlincə qalası ətəyindəki Nəiminin türbəsi yanında məsciddə mühafizə olunan Nuh Peyğəmbərin üstündə "Türk" adı yazılmış daş lövhəsini gətirmək üçün gedərmişlər. Bu hikmətli, qiymətli daş Nuh Peyğəmbərin nəticəsi Əlincə xanın iqamətgahında, Əlincə qalasındakı xəzinəsində qorunub saxlanılırmış.

Naxçıvandan Əlincəyə gedən heyət oradakı məscidin ruhaniləri ilə birlikdə o müqəddəs daş lövhəni Nuhtabana gətirərmiş. Bu müqəddəs daşı görmək, ona nəzir, niyazlar etmək üçün insanlar yollara toplaşarmışlar.

Heyət Nuhtabana daxil olduğu vaxt həm sevinc, həm də həyəcan doğuran səslər bütün ətraf kəndlərə də yayılırmış. Əlincədən gələn heyətin başçısı bu müqəddəs daşı Nuhtabanda, məzarın önündə nümayiş etdirirmiş. Bundan sonra heyət Nuhun məzarı olan türbəyə – sərdabəyə daxil olub daşı məzarın üzərinə qoyurmuş. Bu mərasim zamanı el şənlikləri, xalq oyunları keçirilərmiş. Bura ziyarətə gələnlər qurbanlar kəsər, ehsanlar, ziyafətlər verərmişlər. Həmin ziyafət, mərasim "Şölən" adlandırılmışdır. Bu sözün məna və mahiyyətini yaxşı bilənlər bu mərasimlər dövründə doğulan övladlarına "Şulan" və ya "Şölən" adlarını verərmişlər. Buna görə də "Şulan" adı yalnız Naxçıvandakı şəxs adları üçün daha səciyyəvidir. Bu ad, bəlkə də, yalnız Naxçıvanda qoyulur.

Nuhtaban mərasimlərində bayatı da deyilirmiş. Həmin bayatılardan biri belə idi:

*Əzizim ozan ağlar,*
*Daşları yazan ağlar,*
*Burda Nuhum ölübdür,*
*Qəbrini qazan ağlar.*

Çar Rusiyası Naxçıvanı işğal etdikdən sonra bu mərasimlərə də son qoyulub. O zamanlar Nuhun məzarı dağıdılıb, o müqəddəs daş lövhə də yoxa çıxıb və ya məhv edilib.

**Əkrəm HÜSEYNZADƏ**
***filologiya üzrə fəlsəfə doktoru***

# Novruz bərəkəti

*Yurdumuza yaz gəlir. Qışın tutqun və soyuq keçən günləri nəhayət ki, yaz təravəti ilə əvəz olunur. Belə gözəl günlərdə insanları Günəşin mehrindən də artıq isidən, bu dünyada yaxşılıq etməyə, halal zəhmətlə yaşamağa və qarşılıqlı sevgiyə qovuşmağa çağıran Novruz bərəkəti isə uşaqdan-böyüyə hamını sevindirir.*



Bayram günlərində, xüsusən Novruzda uşaqları sevindirmək, qonaq getmək, qonaq qarşılamaq hər kəsin arzusudur. Xalqımızın adət-ənənələrində mühüm yer tutan milli mətbəximizə məxsus nemətlərlə süfrəmizi bəzəmək Novruzun əvəzedilməz atributlarındandır. Çünki adi günlərdən fərqli olaraq bayram günlərində qohum-əqrəba, dost-tanışlarla mənalı saatlar keçirmək üçün zəngin, rəngarəng süfrə açmaq istəyi milli qonaqpərvərliyimizdən süzülüb gələn bir dəyər kimi həm də bir yaşayış keyfiyyətidir. Xüsusən qışın sərt soyuğundan sonra yazın gəlişinin bayram edildiyi günlərdə daha barlı və bərəkətli növbəti bir ilə başlamağın sevinci ikiqat artıqdır. Əgər bazarımızda bolluqdursa, Novruz bayramını hələ günlər öncəsindən qeyd etməyə dəyər.

Bayramı yaddaqalan keçirmək istəyi bu il Naxçıvandakı bazar və yarmarkalarda əhalinin fəallığı fonunda açıq şəkildə görünür. Ənənəvi Şərq bazarlarına xas olan qələbəlikdə alış-veriş etməyi sevən naxçıvanlılar dükan-bazara axın edirlər. Məhsul istehsalçıları, satıcılar da bu günlərə əvvəldən hazırlaşıblar ki, nə desən bazara çıxarıblar. Sərt keçən qışdan sonra özünü yetirmiş günəşli günlərin ılıq nəfəsindən cana gəlib boy atmış can dərmanı Naxçıvan göyərtiləri, yerli istixanalarda yetişdirilən keyfiyyətli tərəvəzlərin və ötən ilin payızından bayram üçün tədarük olunmuş meyvələrin ən yaxşısı piştaxta və rəflərdə düzülüb. Hərdən idxal məhsullarına da rast gəlinsə də, ildən-ilə artan yerli məhsullarımızı gördükcə hər birimiz – çox şükür ki, öz tələbatımızı yerli istehsal hesabına ödəyə bilirik, – deyə düşünürük.

Bu bayramda insanlar hədiyyələr almağa can atır. Yaz gələndə ağsaqqal, ağbirçək ziyarətinə çıxanda hədiyyə almaq qədər hədiyyə vermək də insana sevinc bəxş edir. Bu əziz bayramdan, yaşadığımız xoş günlərdən fərəhlənən nənələrin sandıqları, boğçaları açılır, qız-gəlinlər yeni dəbli geyimlər üçün bahalı mağazalara üz tutur, dükan-bazarlar payızdakından da bolluq içində gəlhagəl deyir. Ailəlikcə alış-verişə çıxan yerli sakinlərə bir də şəhərimizin qonaqları, axın-axın gələn turistlər əlavə olunduqda görürük ki, Novruz, həqiqətən də, bərəkət bəxş edən bayramdır. Çünki Novruz həm xalqımızın yaddaşından minillik süzülüb gələn xalq şənliyi, təbiətin oyanması, sülh, əmin-amanlıq və dostluq bayramı, həm də əsl bolluq, bərəkət bayramıdır.

**Əli CABBAROV**

# Naxçıvan bayram libasındadır







*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalara martın 16-da start verilib. Xəbər verdiyimiz kimi, həmin gün tur-aksiya çərçivəsində Bakı şəhərinin 6 rayonundan 162 məktəbli 18 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına gəlib.*

## Bakı məktəbliləri Ordubad və Culfa rayonlarının ərazisində yerləşən tarixi abidələrlə, mədəniyyət və təhsil müəssisələri ilə tanış olublar





Tur-aksiyanın ikinci günü Bakı məktəbliləri Ordubad və Culfa rayonlarının ərazisində yerləşən tarixi abidələrlə, mədəniyyət və təhsil müəssisələri ilə tanış olublar.

Füsunkar təbiəti, tarixi abidələri olan Ordubad rayonu ilə tanışlıq Bakı məktəbliləri üçün xüsusilə yaddaqalan olub. Əvvəlcə şagirdlər Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəbə gəliblər. Şagirdlərin diqqətinə çatdırılıb ki, 810 şagird yerlik məktəbdə 5-i elektron lövhəli olmaqla, 45 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter, 2 şahmat, 2 müəllimlər otağı, kitabxana, bufet və idman zalı var. Məktəbdə 57 kompüter şagirdlərin istifadəsindədir. Elektron lövhəli siniflərdə şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki və bioloji proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini izləyə, eləcə də virtual tədris mübadiləsi apara bilirlər.

Akademik Yusif Məmmədəliyevin Ordubaddakı ev-muzeyi ilə tanışlıq da paytaxt məktəblilərində böyük maraq doğurub. Bildirilib ki, alimin ev-muzeyi 1975-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Muzeyin ikimərtəbəli binası ekspozisiya zalı, fond və iş otaqlarından ibarətdir. Burada akademikin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid sənədlər, çap olunmuş əsərləri, fotoşəkillər, habelə xatirə şəkillərindən ibarət 2 mindən artıq eksponat saxlanılır.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi "Qeysəriyyə" tarixi binasına gələn məktəblilərə buradakı eksponatlar barədə məlumat verilib.

Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin ev-muzeyində şagirdlərə məlumat verilib ki, burada onun tərcümeyi-halı, əlyazmaları, nəşr olunan məqalə və kitabları, eləcə də teatr sahəsindəki xidmətlərini əks etdirən dəyərli nümunələr, görkəmli pedaqoqun zəngin irsinin öyrənilməsi ilə bağlı keçirilən konfransların materialları, qəbul olunan proqramlar, Məhəmməd Tağı Sidqi haqqında yazılmış kitab, jurnal, qəzet materialları və fotoşəkillər qorunur.

Məktəblilər Məmməd Səid Ordubadinin ev-muzeyində də olublar. Məlumat verilib ki, ümummilli lider Heydər Əliyev 1972-ci ildə Ordubad şəhərində Məmməd Səid Ordubadinin ev-muzeyinin yaradılması haqqında qərar qəbul edib. 2010-cu ildə muzeydə yenidənqurma işləri aparılıb. Bu gün muzeydə yazıçının həyatını və yaradıcılığını əks etdirən 2 minə yaxın eksponat qorunub saxlanılır.

Culfa rayonu ərazisində məktəblilərin xüsusi maraq göstərdikləri ünvanlardan biri Gülüstan türbəsi olub. Burada məktəblilərə məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən, Culfa rayonu ərazisində yerləşən dünya əhəmiyyətli Gülüstan türbəsi elmi və tarixi əsaslarla bərpa olunub. Gülüstan türbəsi ölkəmizin tarixi abidələri içərisində memarlıq həllinə və həndəsi ornamentlərinə görə seçilir. Buna görə də türbənin bərpası zamanı hər bir detala xüsusi diqqət yetirilib, abidənin orijinallığı qorunub saxlanıb.

Məktəblilərin ən çox diqqət ayırdıqları məkanlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən bərpa olunan "Əlincəqala" tarixi abidəsi və "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi olub. Burada məktəblilərin diqqətinə çatdırılıb ki, "Əlincəqala" tarixi abidəsindəki qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunub. Qala divarları və bürclər əzəmətli görkəmi ilə Naxçıvan memarlıq məktəbinin qədim izlərini özündə yaşadır. "Əlincəqala" tarixi abidəsinin bərpa olunması xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və bütün dünyada tanıdılması baxımından mühüm əhəmiyyət daşıyır.

## Naxçıvanın zəngin təbiəti, əzəmətli tarixi abidələri tur-aksiya iştirakçılarını heyrətləndirib



Tur-aksiya çərçivəsində məktəblilərlə həmsöhbət olmaq imkanı əldə etdik. Bakı şəhərinin Binəqədi rayonundakı 100 nömrəli tam orta məktəbin şagirdi Kənan Bəgəliyev bildirdi ki, bu layihə onların ölkəmiz haqqında biliklərinin artırılmasında mühüm rol oynayır: "Həmyaşıdlarım adından tur-aksiyanın təşkilatçılarına minnətdarlığımı bildirirəm. Həqiqətən də, ölkəmizin hər bir guşəsi gözəldir. "Azərbaycanın incisi" adlandırılan Ordubad çox xoşuma gəldi. Mən burada ancaq tarix kitablarından tanıdığım və ensiklopediyalarda şəkillərinə rast gəldiyim tarixi abidələrlə daha yaxından tanış oldum, onlar haqda maraqlı məlumatlar əldə etdim. Elə Culfa rayon ərazisindəki Gülüstan türbəsi və "Əlincəqala" tarixi abidəsini yaxından gördüyüm üçün sevinirəm. Bakıya qayıdanda bu abidələr haqda öz yoldaşlarıma deməyə çox sözüm olacaq".



Digər bir məktəbli aksiya iştirakçısı Bakı şəhərinin Nərimanov rayonundakı Ekologiya Liseyinin şagirdi Arzu Zeynallı dedi ki, doğma Vətənimizin ayrılmaz bir parçası olan Naxçıvanı qarış-qarış gəzir, tarixi abidələrlə tanış olur, dəyərli məlumatlar toplayırıq. Mənim üçün ən maraqlısı Ordubad şəhərindəki muzeylər, onların zəngin eksponat fondu, şəhərdə çağlayan bulaqlar və yüz illərə şahidlik edən çinarlar oldu. Bu şəhər bütövlükdə bir muzeydir. Bizə bu imkanın yaradılmasında əməyi olan hər kəsə minnətdarlığımızı bildiririk.



Ürək sözlərini bizimlə paylaşmaq istəyən Bakı şəhər Qaradağ rayonu 320 nömrəli məktəbin şagirdi Mehriban Quluzadə məğrur Əlincəqalanın görünüşünün heç bir zaman yaddaşından silinməyəcəyini dedi. Bildirdi ki, bu qala haqda kitablardan çox oxumuşdum, indi isə əyani şəkildə gördüm, biliklərimi daha da zənginləşdirdim. Həqiqətən də, bu qala öz əzəməti ilə hər bir məktəblini valeh etdi, bizdə bu yurdun şanlı keçmişi haqda silinməz təəssüratlar yaratdı. Naxçıvan səfərimiz mənim və dostlarımın Vətənə olan sevgisini daha da artırdı. Aksiya zamanı biz həm də yaşıdlarımızla fikir mübadiləsi aparmaq imkanı qazandıq. Bu səfər bizim həyatımızda unudulmaz xatirəyə çevriləcəkdir. Buna görə də yoldaşlarım adından ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlığımı bildirirəm.

Bir sözlə, "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyaların ikinci günü də Bakı məktəbliləri üçün bir-birindən maraqlı ekskursiyalarla yadda qaldı.

**Səbuhi HÜSEYNOV**

## Ümumdünya Daun Sindromlu İnsanlar Günü qeyd edilib

***Martın 17-də 21 mart – Ümumdünya Daun Sindromlu İnsanlar Günü ilə əlaqədar Naxçıvan şəhərindəki "Nəqşicahan" restoranında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə tədbir keçirilib.***





Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildiriblər ki, muxtar respublikada yaşayan daun sindromlu insanların sosial müdafiəsinin gücləndirilməsi, cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzində saxlanılır. Bu kateqoriyadan olan uşaqlara müxtəlif sosial reabilitasiya xidmətləri göstərilir, həmçinin onların valideynləri ilə mütəmadi olaraq maarifləndirici görüşlər keçirilir.

Tədbirin bədii hissəsində "İnam" musiqi qrupu konsert proqramı ilə çıxış edib.

Sonda daun sindromlu 69 nəfərə bayram hədiyyələri təqdim edilib.

Valideynlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, "Daun" adı ilk dəfə 1866-cı ildə bu sindromun əsas fiziki xüsusiyyətlərini qeyd edən həkimin – Con Lenqdon Daunun şərəfinə adlandırılıb. Daun sindromlu insanların sosial problemlərini öyrənmək və onlara göstərilən diqqət və qayğını artırmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi 2011-ci ildə 21 mart tarixini "Ümumdünya Daun Sindromlu İnsanlar Günü" elan edib.

21 mart – Ümumdünya Daun Sindromlu İnsanlar Günü hər il muxtar respublikada da qeyd olunur.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 232